**15.11.2022: xəbər**

## Pianist employee of Khazar University at Victory Day event in Almaty

On November 8, 2022, in the city of Almaty, Kazakhstan, a solemn event was held on the occasion of the Victory Day and the 30th anniversary of the establishment of diplomatic relations between the Republic of Azerbaijan and the Republic of Kazakhstan.

Ambassador of Azerbaijan to Kazakhstan Aghalar Atamoghlanov, national writer of Kazakhstan, public figure Oljas Suleymenov, who always supports Azerbaijan, members of diplomatic missions, members of the Milli Majlis of the Republic of Azerbaijan, public and political figures, representatives of the Azerbaijani diaspora took part in the event.

Ambassador Aghalar Atamoglanov greeted the guests and congratulated them on November 8 - Victory Day, which is a glorious page in the history of the Azerbaijani people. He gave information about Armenia's 30-year-long occupation policy, the path to our glorious victory, the 44-day Patriotic War, and the restoration and reconstruction works currently being carried out in our liberated territories.

Following the official part of the event and other official speeches, national artists of Azerbaijan, singer Melakkhanim Ayyubova, tarzan Mohlat Muslimov, kamancha player Fakhreddin Dadashov, opera singer of Azerbaijan Academic Opera and Ballet Theater, honored artist of Azerbaijan Ilaha Efendiyeva, pianist, laureate of international competitions Zulfiya Sadygova (head of Khazar University Music and Art Department, honored teacher), also state dance ensemble "Saltanat" and the ensemble "Bahar" of Kazakhstan performed at a special concert program.

## “Xəzər”in pianoçu əməkdaşı Almatı şəhərində Zəfər Günü tədbirində

2022-ci il noyabrın 8-də Qazaxıstanın Almatı şəhərində Zəfər Günü və Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə təntənəli tədbir keçirilmişdir.

Tədbirdə Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov, Qazaxıstanın xalq yazıçısı, ictimai xadim, hər zaman Azərbaycanı dəstəkləyən Oljas Süleymenov, diplomatik nümayəndəliklərin üzvləri, AR Milli Məclisinin deputatları, ictimai-siyasi xadimlər, Azərbaycan diasporunun nümayəndələri iştirak etmişdir.

Səfir Ağalar Atamoğlanov qonaqları salamlayaraq, Azərbaycan xalqının tarixinin şanlı səhifəsini təşkil edən 8 Noyabr - Zəfər Günü münasibətilə təbrik etmişdir. Ermənistanın 30 ilə yaxın davam edən işğal siyasəti, şanlı qələbəmizə gedən yol, 44 günlük Vətən Müharibəsi və hazırda azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işləri barədə məlumat vermişdir.
Digər rəsmi çıxışlarla tədbirin rəsmi hissəsi bitdikdən sonra Azərbaycanın xalq artistləri, xanəndə Mələkxanım Əyyubova, tarzən Möhlət Müslümov, kamança ifaçısı Fəxrəddin Dadaşov, Azərbaycan Akademik Opera və Balet Teatrının opera müğənnisi, Azərbaycanın əməkdar artisti İlahə Əfəndiyeva, pianoçu, beynəlxalq müsabiqələr laureatı Zülfiyyə Sadıqova (Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim), həmçinin, Qazaxıstanın “Saltanat” dövlət rəqs ansamblı və “Bahar” ansamblı xüsusi konsert proqramı ilə çıxış etmişlər.